# Həftəlik
# *Bülleten*



**127**
**30 Yanvar 2026**

- Xəbərlər
- Tədbirlər
- Görüşlər
- Tender və lahiyələr
- Dünya tikililəri

ATMİA

info@atmia.az www.atmia.az

**Prezident Sumqayıt Sənaye Parkında yeni müəssisənin təməlini qoyub.**

Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 27-də Sumqayıt Sənaye Parkında "Nun" MMC-nin polipropilen və laminatlı kisə istehsalı müəssisəsinin təməlini qoyub.

"Nun" MMC-nin təsisçisi Kamran Rzayev yaradılacaq müəssisə barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, ötən il Sumqayıt Sənaye Parkının rezidenti statusu verilən bu MMC tərəfindən reallaşdırılacaq layihəyə uyğun olaraq 1 hektar ərazidə istehsal müəssisəsinin tikintisi nəzərdə tutulub. Almaniya texnologiyasından istifadə ediləcək müəssisənin illik istehsal gücü 1680 ton laminatlı kisə, 1440 ton polipropilen kisə olmaqla ümumilikdə 3120 tondan çox təşkil edəcək. Məhsullar əsasən daxili bazarın tələbatını ödəyəcək. Burada 140 daimi iş yeri yaradılacaq. İnvestisiya həcmi 11,2 milyon manat olan müəssisənin qurulmasına İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 3 milyon manat dəyərində güzəştli kredit ayrılması nəzərdə tutulub. Burada quraşdırılacaq avadanlığın idxal zamanı ƏDV və gömrük rüsumlarından azad olunması planlaşdırılır.



**Sumqayıt Sənaye Parkında karton və qutu taralarının istehsalı müəssisəsinin açılışı olub.**

Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 27-də Sumqayıt Sənaye Parkında “Bakı Karton və Qutu Fabriki” MMC-nin karton və qutu taralarının istehsalı müəssisəsinin açılışında iştirak edib. “Bakı Karton və Qutu Fabriki” MMC-nin rəhbəri Kamran Salmanlı dövlətimizin başçısına müəssisənin fəaliyyəti barədə məlumat verdi. Bildirildi ki, 2023-cü ildə Sumqayıt Sənaye Parkının rezidenti statusu verilən “Bakı Karton və Qutu Fabriki” MMC tərəfindən Parkın 3 hektara yaxın ərazisində karton və qutu taralarının istehsalı müəssisəsi qurulub. Türkiyə və Çin texnologiyalarından istifadə edilən müəssisədə il ərzində 55 milyon kvadratmetr karton və qutu tarası istehsal olunacaq. Burada birinci mərhələdə karton və qutu istehsalının, ikinci mərhələdə isə karton istehsalı üçün tələb olunan yerli xammalın təkrar emalının həyata keçirilməsi planlaşdırılır. Məhsullar daxili bazarın tələbatını ödəməklə yanaşı, ixrac da ediləcək. Müəssisənin investisiya dəyəri 20 milyon manatdır. Onun yaradılmasına İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 2 milyon manat dəyərində güzəştli kredit ayrılıb. Burada 64 daimi iş yeri yaradılıb. Sənaye parkının rezidentlərinə verilən bütün güzəştlərdən yararlanan müəssisə təqribən 1,3 milyon manat dəyərində vergi və gömrük azadolmasından faydalanıb.



**Sumqayıtda yeni zavodun açılışı oldu - İlham Əliyev iştirak etdi.**

Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 27-də Sumqayıt Sənaye Parkında "Azermirror" MMC-nin güzgü vərəqələrin istehsalı zavodunun açılışında iştirak edib. İqtisadiyyat naziri Mikayıl Cabbarov dövlətimizin başçısına əvvəlcə ölkəmizdə yaradılan sənaye zonaları və Sumqayıt Sənaye Parkının fəaliyyəti barədə məlumat verdi. "Azermirror" MMC-nin təsisçisi Rüstəm Abbasov Prezident İlham Əliyevə müəssisə barədə məlumat verdi. Bildirildi ki, bu MMC-yə 2023-cü ildə Sumqayıt Sənaye Parkının rezidenti statusu verilib. "Azermirror" tərəfindən sənaye parkının 1 hektar ərazisində güzgü vərəqələrinin istehsalı zavodu tikilib. Zavodda ildə 900 min kvadratmetr güzgü vərəqəsi istehsal ediləcək. Müəssisədə hazırlanan məhsulların daxili bazarın tələbatını ödəməklə yanaşı, ixracı da nəzərdə tutulur. Çin texnologiyası əsasında qurulan layihənin investisiya dəyəri 6,13 milyon manatdır. Müəssisənin yaradılmasına İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 1,5 milyon manat güzəştli kredit ayrılıb. Onu da qeyd edək ki, Azərbaycanda qeyri-neft sənayesinin inkişafı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Ölkəmizdə mövcud təbii və iqtisadi resurslardan səmərəli istifadə, innovativ yanaşmaların və qabaqcıl texnologiyaların sənaye istehsalına cəlb olunması, yeni sənaye sahələrinin formalaşdırılması, rəqabətqabiliyyətli məhsul istehsalının genişləndirilməsi istiqamətində sistemli tədbirlər davam etdirilir.



**Sumqayıtda beş ünvanda söküntü işləri aparılacaq .**

"Sumqayıt şəhəri 4-cü, 15-ci, 16-cı, 17-ci, 21-ci məhəllələrdə yerləşən və istismar müddətini başa vuran binalar söküləcək". Bu barədə Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədri Vüqar Oruc məlumat verib. O bildirib ki, ilkin mərhələdə 13 qəzalı binada söküntü işləri görüləcək: "Bu binalar, əsasən, 1945-55-ci illərdə inşa edilib və təxminən 75 ildən artıqdır ki, istismar olunur. Sözügedən binalar bir və iki mərtəbəlidir. Bu proses nəticəsində 1 000-dən çox ailənin köçürüləcəyi gözlənilir. Sökülməsi planlaşdırılan binalar arasında "fin evi" kimi tanınan tikililər də var. Söküntü prosesində əsas məqsəd həmin binalarda yaşayan vətəndaşların təhlükəsizliyinin təmin edilməsi və onların yeni yaşayış mənzilləri ilə təmin olunmasıdır. Hazırda 4-cü, 15-ci, 16-cı, 17-ci, 21-ci məhəllələrdə qəzalı binaların mövcud olduğuna dair məlumatlar mövcuddur. Layihəyə uyğun olaraq, həmin ərazilərdə söküntü işləri aparılacaq". "Biz Azərbaycan Qiymətləndiricilər Cəmiyyəti olaraq, ilkin hesablamalar aparmışıq. Mən hesab edirəm ki, Sumqayıt ərazisində yerləşməsindən asılı olaraq, bir kvadratmetr üçün kompensasiya məbləğinin təqribən 2000-2500 manat civarında olması məqsədəuyğundur."

O vurğulayıb ki, hazırda Sumqayıt ərazisində sökülәcək olan 21 bina və 450-dən çox mənzilin olduğuna dair məlumatlar var:

"Prosesin əhatə dairəsi genişləndiriləndən sonra sökülәcək binaların sayının 40-a, mənzillərin sayının isə 1500-ə çatacağı gözlənilir".



**Nazirlər Kabineti Tikintilərin Dövlət Reyestri barədə qərar qəbul edib.**

Nazirlər Kabineti 5 iyul 2016-cı il tarixli qərarı ilə təsdiq edilmiş "Tikintiyə icazənin qüvvədə olma müddətinin uzadılması ilə bağlı hallar"da dəyişiklik edib.

Bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb.

Qərara əsasən, bundan sonra tikintiyə icazənin qüvvədə olma müddətinin uzadılması və yaxud əsaslandırılmış imtina barədə qərar haqqında məlumat Şəhərsalma və Tikinti Məcəlləsinin 75.14-cü maddəsinə əsasən 3 iş günü müddətində deyil, qərar verildiyi andan dərhal sonra Tikintilərin Dövlət Reyestrinə təqdim ediləcək.



**Bu Fərmanın icra müddəti başa çatıb.**

"Qeyri-yaşayış təyinatlı bəzi tikili obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Prezidentinin Fərmanının icra müddəti artıq başa çatıb, uzadılması gözlənilmir".

Bunu Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri PHŞ-nin sədri Nigar Alimova 2025-ci il ərzində görülmüş işlər və qarşıda duran hədəflər mövzusunda keçirilən mətbuat konfransında deyib.

O bildirib ki, bundan sonra həmin mexanizmlə yeni müraciətlər qəbul edilməyəcək: "14 iyun 2023-cü il tarixli 2149 nömrəli sözügedən Fərman çərçivəsində sahibkarlara və vətəndaşlara qeyri-yaşayış təyinatlı tikililərin istismarına icazə verilməsi və mülkiyyət hüquqlarının rəsmiləşdirilməsi üçün müəyyən müddət ərzində imkan yaradılmışdı. Fərmanın qüvvədə olma müddəti başa çatıb və artıq bu mexanizm üzrə müraciətlər qeydə alınmır".



**Azərbaycanda 400-500 min sənədləşdirilməsi mümkün olmayan tikili mövcuddur.**

Azərbaycanda təqribən 400-500 min civarında sənədsiz və ya sənədləşdirilməsi mümkün olmayan tikililər var. Bunu "Daşınmaz əmlakın dövlət kadastrı və reyestri sahəsində 2025-ci ildə görülmüş işlərə dair təqdimat" zamanı Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri Publik Hüquqi Şəxsin İdarə Heyətinin sədri Nigar Alimova deyib. "Bu tikililərin statistikasını tam verə bilməməyimiz üçün sözsüz ki, geniş miqyaslı inventarlaşdırma işləri həyata keçirməliyik. Amma qeyri-yaşayış tikililəri üzrə müraciətlərdən təxmin eləsək, yəqin ki, bu qeyd etdiyim rəqəmdən ən azı 10 dəfə çox fərdi yaşayış tipli tikililərin mövcud olduğunu təxmin etmək olar", - N. Alimova əlavə edib. O bildirib ki, Azərbaycan Prezidentinin torpaq münasibətlərinin tənzimlənməsi ilə bağlı bəzi məsələlər haqqında Fərmanının icrası çərçivəsində ölkədə 60 928 ailə dövlət vəsaiti hesabına elektron çıxarışla təmin edilib: "413 423 ədəd dövlət aktı əsasında hüquq sahibi olan vətəndaşlar elektron çıxarışla təmin edilib. Eyni zamanda, Prezidentin qeyri-yaşayış təyinatlı bəzi tikinti obyektlərinin istismarına icazə verilməsi ilə bağlı əlavə tədbirlər haqqında Fərmanın icrası çərçivəsində 23 587 qeyri-yaşayış binasının yerləşdiyi torpaq sahəsinə dair yerquruluşu planı tərtib edilərək aidiyyəti üzrə təqdim edilib. 4 602 qeyri-yaşayış binası üzərində mülkiyyət hüquqları qeydiyyata alınaraq hüquq sahibləri elektron çıxarışla təmin edilib".



**Hörmətli sahibkarlar,**

Nəzərinizə çatdırırıq ki, Tikinti və Quraşdırma İşləri üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi tərəfindən aşağıdakı ixtisaslar üzrə buraxılış qrupları formalaşdırılmışdır və istehsalat təcrübəsinə cəlb olunmaq üçün müəssisələrə təqdim olunur:

1. Elektrik xətlərinin quraşdırılması və təmiri üzrə mütəxəssis – 18 nəfər
2. Çilingər-santexnik – 13 nəfər
3. Rəngsaz və suvaq ustası – 14 nəfər
4. Quru inşaat ustası – 10 nəfər
5. Dülgər – 10 nəfər
6. Qrafik dizayner – 17 nəfər
7. Torna və frezer dəzgahlarının operatoru – 17 nəfər

Müəssisələrində tələbələrin istehsalat təcrübəsi keçməsinə dəstək olmaq istəyən sahibkarların **050 265 36 34** nömrəsi ilə əlaqə saxlamaları xahiş olunur.



**“Şəhərsalma və Memarlıq İli” müasir şəhər mühitinin formalaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır.**

Azərbaycan Prezidenti İlham Əliyevin 2026-cı ili “Şəhərsalma və Memarlıq İli” elan etməsi ölkə başçısının şəhərsalma, memarlıq, tikinti və bu kimi aidiyyəti sahələrə göstərdiyi xüsusi diqqətin, həmçinin ardıcıl və strateji yanaşmanın bariz nümunəsidir. Bunu AZƏRTAC-a açıqlamasında Azərbaycan Tikinti Materialları İstehsalçıları Assosiasiyasının (ATMİA) baş katibi Məhərrəm Məhərrəmli bildirib. “Bu qərar müasir, təhlükəsiz və dayanıqlı şəhər mühitinin formalaşdırılması istiqamətində atılan mühüm addımdır. “Şəhərsalma və Memarlıq İli” müasir şəhər mühitinin formalaşdırılması, infrastrukturun yenilənməsi və dayanıqlı inkişaf prinsiplərinin daha geniş tətbiqi baxımından mühüm əhəmiyyət daşıyır. Eyni zamanda, Azərbaycan Respublikası Hökumətinin və Birləşmiş Millətlər Təşkilatının Məskunlaşma Proqramının (UN-Habitat) təşkilatçılığı ilə “Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri” mövzusunda Ümumdünya Şəhərsalma Forumunun (WUF13) 2026-cı ilin may ayında paytaxt Bakı şəhərində keçirilməsi barədə qəbul edilmiş qərar ölkəmizə göstərilən böyük etimadın göstəricisidir.

Məqalənin linkini sizə təqdim edirik:
https://azertag.az/xeber/sehersalma_ve_memarliq_ili_muasir_seher_muhitinin_formalasdirilmasi_baximindan_muhum_ehemiyyet_dasiyir___rey-3991459






**Bakıda Azərbaycan–İsrail biznes forumu keçirilib.**

Bakıda Azərbaycan–İsrail biznes forumu keçirilib. Forumda Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və İsrailin xarici işlər naziri Gideon Saar, o cümlədən hər iki ölkədən olan iş adamları iştirak ediblər. Tədbir çərçivəsində İsrail şirkətlərinin təqdimatları nümayiş olunub, həmçinin B2B və B2G formatında görüşlər təşkil edilib. ATMİA-nın Baş katibi və üzvlərindən ibarət nümayəndə heyəti forumda iştirak edərək əməkdaşlıq imkanları və sənaye üzrə potensial istiqamətləri müzakirə ediblər.



**Bakıda müasir beton texnologiyaları və tikinti trendlərinə həsr olunmuş "ICCA Academy Baku" beynəlxalq beton konfransı və sərgisi keçirildi.**

29 yanvar tarixində Bakıda müasir beton texnologiyaları və tikinti trendlərinə həsr olunmuş "ICCA Academy Baku" beynəlxalq beton konfransı və sərgisi keçirildi.

Tədbir sektorda qabaqcıl texnologiyaların, innovativ materialların və dayanıqlı həllərin müzakirəsi üçün mühüm platforma oldu.

Qarabağda aparılan geyişmiqyaslı yenidənqurma, ağıllı şəhər layihələri və müasir infrastruktur təşəbbüslərindən də bəhs olunan tədbirdə ATMİA nümayəndələri və üzvləri də fəal iştirak etdilər.





# SƏRGİ/KONFRANS/FORUM

**Sərginin adı: PROPTECH CONNECT - MIDDLE EAST 2026**

**Tarixlər: 04 - 05 Fevral 2026 -cı il,**

**Məkan: Grand Hyatt, Dubay (BƏƏ - Birləşmiş Ərəb Əmirlikləri)**

Yaxın Şərqin Ən Böyük Daşınmaz Əmlak Texnologiyaları Tədbiri, qlobal daşınmaz əmlak sahibkarlarını ,investorları, aktiv menecerlərini, agentləri və icarəçiləri qabaqcıl həllər təminatçıları ilə birləşdirir.

**Sərginin adı: ANNUAL STORMWATER AND WASTEWATER SAUDI ARABIA CONFERENCE 2026**

**Tarixlər: 08 - 09 fevral 2026-cı il,**

**Məkan: Ciddə Hilton Oteli, Ciddə (Səudiyyə Ərəbistanı)**

İllik Yağin Sulari Və Çirkab Sulari Konfransi, yağış suları və çirkab sularının idarə olunmasında innovativ yanaşmaları müzakirə etmək üçün sənaye liderlərini, siyasətçiləri və mütəxəssisləri bir araya gətirir.

**Sərginin adı: UZBUILD 2026**

**Tarixlər: 10-12 fevral 2026-cı il**

**Məkan: Uzexpocentre, Daşkənd (Özbəkistan)**

UzBuild, Özbəkistanda tikinti sənayesinin flaqman tədbiridir və yerli və xarici tikinti materialları, texnologiyaları və xüsusi avadanlıq istehsalçılarının ən yaxşı nailiyyətlərini və yeniliklərini təqdim edir.

**Sərginin adı: FOR PASIV 2026**

**Tarixlər: 12 - 14 fevral 2026 - cı il,**

**Məkan: PVA Letnany - Praqa Sərgi Mərkəzi Letnany, Praqa (Çexiya)**

FOR PASIV ticarət sərgisi aşağı enerjili mənzil, passiv və sıfır enerjili evlərdəki ən son trendləri bir yerdə təqdim edəcək və ziyarətçilərə texnologiyalar, materiallar və dövlət subsidiyaları seçimləri haqqında tam məlumat təqdim edəcək.

## "İRİ ŞƏHƏRLƏRİN BİRLƏŞMİŞ SU TƏCHİZATI XİDMƏTİ" PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER ELAN EDİR.

"İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" Publik Hüquqi Şəxsi açıq tender elan edir.
Elanda "İri Şəhərlərin Birləşmiş Su təchizatı Xidməti" PHŞ-nin inzibati binasının dam örtüyündə və fasad hissəsində cari təmir işlərinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Elşən İsmayılzadə, böyük məsləhətçi
Email: elshen.ismayilzade@isst.gov.az
Əlaqə telefonu:+994 50 289 41 07



**AZƏRBAYCAN RESPUBLİKASI QUBA RAYONU İCRA HAKİMİYYƏTİ TENDER ELAN EDİR.**

Azərbaycan Respublikası Quba Rayonu İcra Hakimiyyəti tender elan edir.
Elanda F.Xan küçəsi 2b ünvanında yerləşən 5 mərtəbəli 4 bloklu yaşayış binasının əsaslı təmirinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Pənah Qurbanəliyev, Baş mühasib-Sektor müdiri
Email: penah.qurbaneliyev@mail.ru
Əlaqə telefonu: +994 50 353 32 20



**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİ TENDER ELAN EDİR.**

Naxçıvan Muxtar Respublikasının Əmək Və Əhalinin Sosial Müdafiəsi Nazirliyi açıq tender elan edir.
Elanda Nazirliyin tabeliyində olan təşkilatların inzibati binalarının layihələndirilməsi və smeta sənədlərinin hazırlanması xidmətinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Şəhla Həsənli, Aparıcı məsləhətçi
Email: shahla.f.hasanli@sosial.gov.az
Əlaqə telefonu: +994 60 600 80 81



**"BAKI DÖVLƏT UNİVERSİTETİ" PUBLİK HÜQUQİ ŞƏXSİ TENDER ELAN EDİR.**

"Bakı Dövlət Universiteti" Publik Hüquqi Şəxsi açıq tender elan edir.
Elanda Bakı Dövlət Universitetinin Qazanxana binasının və "Yüksək Texnologiyalar Mərkəzi"nin inzibati binası üzrə dayandırılmış tikintinin davam etdirilməsi məqsədilə işlərin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Nailə Əsgərli, Şöbə müdiri
Email: nailaasgarli@bsu.edu.az
Əlaqə telefonu: +994 12 539 15 36





**www.atmia.az**